# Gəncə təhsili uğurlarla zəngin olmuşdur

**Gəncədə təhsil işçilərinin 2014-2015-ci tədris ilinin yekunu və yeni tədris ilində qarşıda duran vəzifələrə həsr olunmuş ənənəvi sentyabr konfransı keçirilmişdir. Gəncə Şəhər İcra Hakimiyyətinin, YAP Şəhər Təşkilatının, hüquq-mühafizə orqanlarının, xidmət sahələrinin, təhsil ocaqlarının rəhbərləri, ziyalılar, məzunlar, fəal müəllimlər və valideynlər ümummilli lider Heydər Əliyevin əzəmətli abidəsi önünə tər gül- çiçək dəstələri qoyaraq, onun xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər. YAP Şəhər Təşkilatının zalında keçirilən konfrans şəhər təhsilində ötən il qazanılan uğurlardan bəhs edən vidioçarxın nümayişi ilə başladı. Sonra Gəncə Şəhər Təhsil İdarəsinin müdiri Zakir Hüseynov qonaqları və iştirakçıları salamlayaraq "2014-2015-ci tədris ilinin yekunu və yeni tədris ilində qarşıda duran vəzifələr" mövzusunda geniş hesabatla çıxış etdi.**






Möhtərəm Prezidentimiz İlham Əliyevin diqqət və qayğısının nəticəsidir ki, şəhərimizdə aparılan quruculuq və abadlıq işlərində təhsil müəssisələrinin payı daha çoxdur. Ötən il oktyabr ayının 18-də ölkə rəhbərinin qədim Gəncəyə tarixi səfərini, səfər çərçivəsində Mehdi Mehdizadə adına 4 nömrəli tam orta məktəbin yeni tədris binasının açılışını etməsini çoxminli təhsil işçiləri yaddaqalan gün kimi xatırlayır.

Ötən tədris ilində 4, 26 və 40 nömrəli tam orta məktəblərin əsaslı təmirdən sonra açılışı olmuş, sanatoriya tipli internat məktəbin, 14, 41 və 44 nömrəli tam orta məktəblərin əsaslı təmir işləri davam etdirilir. 39 nömrəli tam orta məktəbdə 1200 şagird yerlik yeni tədris binasının inşası tamamlanmaq üzrədir. Həmçinin qeyd etmək istərdik ki, Gəncə Şəhər Təhsil İdarəsinin yeni inzibati binası olmayıb və sözügedən qurum ayrı-ayrı binalarda fəaliyyət göstərib. Lakin 24 dekabr 2014-cü il tarixdə ən müasir standartlara cavab verən Gəncə Şəhər Təhsil İdarəsinin yeni inzibati binası istifadəyə verildi. Yeni binanın istifadəyə verilməsi ölkəmizdə təhsilə və təhsil işçilərinə göstərilən dövlət qayğısının nəticəsidir.

2014/2015-ci dərs ilində Gəncə Şəhər Təhsil İdarəsinin tabeliyində ümumi təhsil həyata keçirən 46 tam orta, 2 ümumi orta və 1 xüsusi məktəb fəaliyyət göstərmişdir. İlin sonunda şagirdlərin sayı 37213 nəfər olmuş, onların təlim-tərbiyəsi ilə 3989 nəfər müəllim məşğul olmuşdur. 2014/2015-ci dərs ilində məktəblərin XI siniflərini bitirən 2478 nəfər şagirdin hər biri tam orta təhsil haqqında attestat, IX sinfi bitirən 2861 nəfər şagirdin hər biri ümumi orta təhsil haqqında şəhadətnamə almışdır. Əvvəlki illərdən fərqli olaraq bu tədris ilində 2 nəfər məzunumuz qızıl, 1 nəfər isə gümüş medala layiq görülmüşdür. Budaqov Həsənağa Namiq oğlu 672 bal toplayaraq Azərbaycan Tibb Universitetinin stomatologiya fakültəsinə daxil olmuşdur (36 nömrəli tam orta məktəb). Kərimli Kərim Abil oğlu 667 bal toplayaraq Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olmuşdur (26 nömrəli məktəb-liseyin eksperimental pilot sinfi). Dumanov Fərman Zahid oğlu Sinqapur Dövlət Universitetinə daxil olmuşdur (26 nömrəli məktəb-liseyin eksperimental pilot sinfi).

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının statistik məlumatına əsasən, 2014/2015-ci tədris ilinin məzunlarından 1850 nəfəri ali məktəblərə sənəd təqdim etmişdilər. Onların 935 nəfəri, yəni 50,54 faizi respublikamızın ali məktəblərinə qəbul olmuşdur. Bunlardan başqa 104 nəfər abituriyent 11 illik təhsil bazasından orta ixtisas təhsil müəssisələrinə qəbul olmuşdur. Ali məktəblərə qəbul üzrə ən yüksək göstərici 1, 4, 17, 24, 26, 27, 39, 42, 46 nömrəli tam orta məktəblərdə olmuşdur. Qəbul olanların 220 nəfəri 500-dən yuxarı bal toplamışdır, bunlardan 6 nəfəri ötən ilin məzunlarıdır. 74 nəfəri isə 600-dən yuxarı bal toplayaraq yüksək nəticələr göstərmişdir ki, bunlardan 2 nəfəri ötən ilin məzunlarıdır. 31 nəfərin isə 650-dən yuxarı bal toplaması bizi daha çox sevindirir. Onlardan 1 nömrəli tam orta məktəbin şagirdi Qasımov Elçin Ziyad oğlu ən yüksək, yəni 700 bal toplayaraq Qafqaz Universitetinə daxil olmuşdur.

Ötən dərs ili ərzində təhsil idarəsinin tabeliyində 8 məktəbdənkənar müəssisə fəaliyyət göstərmişdir.

Gəncə şəhər ümumtəhsil məktəbliləri arasında 18 oktyabr – Dövlət Müstəqillik Günü ilə əlaqədar olaraq, Milli Qəhrəmanımız Pərviz Səmədovun xatirəsinə həsr olumuş voleybol, basketbol, futbol yarışları keçirilmişdir. Bu yarışlarda 978 şagird iştirak etmişdir.

Uşaq Yaradıcılıq Mərkəzi "Uşaqların və gənclərin ən yaxşı yaradıcılıq işləri" Respublika müsabiqəsinə şəhər mərhələsində I yerə layiq görülmüş 6 nominasiya üzrə 7 nəfər dərnək üzvünün əl işini Bakı şəhərinə göndərmişdir.

Təhsildə tədrisin təşkili vəziyyətinin yüksəldilməsində, müəllimlərə lazımi elmi-metodiki köməklik göstərilməsində, yeni fənn kurikulumlarının tətbiqində Metodiki Mərkəzin xidmətləri böyükdür. Gəncə Şəhər Təhsil İdarəsində Təhsil Resurs Mərkəzi fəaliyyət göstərir. Mərkəz məktəb müəllimlərinin, psixoloqların və kitabxanaçıların ən çox müraciət etdiyi bir məkana çevrilmişdir.

Keçən tədris ilində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92 illik yubileyi münasibətilə ümumtəhsil müəssisələrinin şagirdləri arasında inşa müsabiqələri, müxtəlif nominasiyalar üzrə gənc ifaçıların müsabiqələri keçirilmişdir.

Gəncə Şəhər Təhsil İdarəsinin müdiri Zakir Hüseynov çıxışının sonunda, təhsilə sonsuz diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə Gəncə şəhər təhsil işçiləri adından dərin minnətdarlığını bildirərək, qeyd etmişdir ki, Gəncə şəhər çoxsaylı təhsil işçiləri ölkə Prezidentinin apardığı daxili və xarici siyasəti həmişə dəstəkləmişdir, dövlətin və dövlətçiliyin inkişafı və tərəqqisi naminə onun ətrafında daha sıx birləşərək ölkədə aparılan siyasi və quruculuq işlərində bundan sonra da fəal iştirak edəcəklər.

Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun direktoru Qulu Novruzov Azərbaycan təhsil sistemindəki yeniliklər, qarşıda duran vəzifələr və perspektivlər haqqında geniş məlumat verdi.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev çıxış edərək qazanılan uğurları dövlət qayğısının nəticəsi kimi dəyərləndirərək, şəhər təhsilinin inkişafı, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərdən söhbət açdı. Sonra qərar layihəsi oxundu, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olundu.

Konfransın sonunda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev tərəfindən yüksək balla ali məktəblərə qəbul olunmuş məzunlara "Fəxri fərman"lar və qiymətli hədiyyələr təqdim edildi.

**Zabit XƏLİLOV,**
**"Respublika".**